DÖVLƏT VERGİ XİDMƏTİ

# "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz"lə işləyən şəxslər bunları bilməlidirlər!

**Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, 01.01.2026-cı il tarixindən etibarən** aşağıda göstərilən fəaliyyət növləri ilə fərdi qaydada (muzdlu işçi cəlb etmədən) məşğul olan fiziki şəxslər üzrə məcburi dövlət sosial sığorta haqqı aşağıdakı qaydada hesablanır:

- toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyətlər, fərdi foto, audio-video xidmətləri (fotostudiyalar istisna olmaqla)– minimum aylıq əməkhaqqının 8% miqdarında,
- çəkməçi, pinəçi, bərbər, dərzi fəaliyyəti, saat, televizor, soyuducu və digər məişət

195-1
AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az
www.taxes.gov.az

cihazlarının təmiri, nəqqaşlıq emalatxanalarının fəaliyyəti, fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu, xəstələrə, qocalara və uşaqlara qulluq xidməti, dayə, fərdi sürücülük, ev təsərrüfatında təmizlik, bağban, aşpaz, gözətçi, iaşə obyektlərində müştərilərə xidmət göstərən (ofisiant), fərdi baytarlıq xidməti praktikası ilə məşğul olan fiziki şəxslər– minimum aylıq əməkhaqqının 5% miqdarında hesablanır.

Bu məbləğə fəaliyyətin həyata keçirildiyi əraziyə uyğun olaraq əmsallar tətbiq edilir.

- Bakı şəhəri (kənd və qəsəbələr daxil olmaqla) – 2,0;
- Abşeron rayonu, Sumqayıt və Gəncə şəhərləri – 1,5;
- Digər şəhər və rayonlar – 1,0.

BAKI — 2026